*Əhməd CAVAD - 130*

# İSTİQLALIN SUSMAYAN ŞAİRİ



Bədii fikri ictimai təfəkkürü ilə səsləşən, üçrəngli poeziyası təkcə Azərbaycanlıların deyil, bütün Türk dünyasının ruhuna tərcüman olan istiqlal şairi, xalq mücahidi Əhməd Cavaddan, şerimizin sözü, sözümüzün ahəngi,yaddaşımızın silinməz yazısı, himn kimi daim səslənən, Qara dəniz kimi əbədi dalğalanan , Göy göl kimi zərif, bayraq kimi uca olan Əhməd Cavad poeziyasından nə qədər yazsaq, nə qədər danışsaq, azdır.Ürəyinə dadlı xülya dolan şair sirin günlərini vətənsiz sürməyi özünə haram bildi, çeynənən bir ölkənin haqq bağıran susmayan səsi oldu. Ən ağır işgəncələrə məruz qalanda da ona xəyanət etmədi, düşmənə əyilmədi.İçimizdəki sapı özümüzdən olan baltalar onu cismən öldürsələr də, 130 ildir ki, susmayan bir Əhməd Cavad var vəəbədi var olacaqdır!

O, bütün həyatını milli istiqlal ideyalarının gerçəkləşməsinə həsr etmiş, bir əlində qələm, bir əlində silah əsarətə, zülmə, imperializmə qarşı açıq mübarizə aparmışdır. Milli istiqlal şairi kimi tanınan ,ADR-in qurucularından biri olan ,ədəbi mühitdə və geniş ictimaiyyətdə həm də cümhuriyyət dövrünün ən parlaq şairi kimi tanınan Əhməd Cavadın bədii- siyasi ideya dünyası təbiət və sevgi lirikası qədər zəngindir. Onun Azərbaycanın müstəqilliyi, dövlət quruculuğu sahəsindəki fəaliyyəti, mövqeyi həm də yeni romantik və vətəndaşlıq poeziyamızın parlaq nümunələrini yaratması ilə xarakterizə olunur. Bütün varlığı və ruhu ilə Azərbaycan Cümhuriyyətinə bağlı olan Əhməd Cavadın bu dövrdə yazdığı şeirlər arasında üçrəngli bayrağımıza həsr olunmuş şeirləri xüsusi yer tutur:

Türküstan elləri öpüb alnını,
Söyləyir dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərməğan yolla sən yara, bayrağım!

Azərbaycan Rusiya tərəfindən işğal ediləndən sonra da Əhməd Cavad milli istiqlal ideyalarına sadiq qalır:

*Hanı yaz mövsümü gülüm, çiçəyim?*
*Tez düşdü yurduma xəzan, ay ellər.*
*Mən yaza bilmədim, əllərim bağlı,*
*Yoxmu bu dərdimi yazan, ay ellər?*

- deyə fəryad edir .Ə.Cavad yaradıcılığının çoxşaxəliliyi ideya və problematika baxımından, milli vətəndaşlıqduyğularınınkişafı baxımından onun ədəbi fikir tarixindəki yerini, mövqeyini özündə daha aydın şəkildə əks etdirir.Milli dövlətçilik şüurunun möhkəmlənməsində, milli və ictimai azadlığın itirildiyi sovet dönəmində istiqlal ideyasının yaşaya bilməsində Əhməd Cavad irsimüstəsna rol oynamışdır.Onun çoxcəhətli fəaliyyəti, gəncliyi, bir neçə dil bilməsi, istedadı, öz əqidəsindən, məsləkindən dönməz olması da səbəb olmuşdur ki, cümhuriyyətin rəsmi nümayəndəsi kimi 1918-ci ildə ona diplomatik pasport verilmişdir. Bu dövrdə geniş fəaliyyət göstərən "Yaşıl qələmlər" dərnəyinin Məhəmməd Əmin Rəsulzadə, Ömər Faiq Nemanzadə, Üzeyir Hacıbəyli, Əbdürrəhimbəy Haqverdiyev, Nəcəfbəy Vəzirov, Salman Mümtaz, Hüsein Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı kimi görkəmli üzvləri arasında Əhməd Cavadın öz yeri vardır.

*Mən doğrusu, daim gülmək istərəm,*
*Nə öldürmək, nə də ölmək istərəm!*
*Artıq yetər Yer üzündə axan qan,*
*Yetər artıq bu göz yaşı, bu hicran!*

- Bu sətirlər işığa can atan, fəqət taleyi qaranlıqdan keçən Əhməd Cavadın həyatının qısa yol bələdçisidir.Bu sətirlər yüksək istedada malik, vətənini, xalqını bütün qəlbi ilə sevən bir Türk oğlunun həyatın təbii axarını pozanlara şeir dili ilə etirazıdır.

*Mən deyən yox, fələk deyən oldusa,*
*Əsdi yellər, gül yanağın soldusa;*
*Dərd əlindən ala gözlər doldusa,*
*Sən ağlama, mən ağlayım, gözəlim!*

- sözləri ilə hissini oxucuya çatdırmağı bacarmış, bir neçə sətirdə cəlladların əli ilə al qanına boyanmış, arzuları güllələnmiş vətənin dərdlərindən söz açmış,oxucunu da öz duyğularına ortaq etməyə nail olmuşdur...

*Nə qədər ki, hakimlik var,*
*məhkumluq var, mən varam!*
*Zülmə qarşı üsyankaram,*
*əzilsəm də SUSMARAM!*

- deyən şairə 1937-ci ilin qara yelləri tüğyan etməyə başlayanda "xalq düşməni" damğası vuruldu.Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan,Azərbaycanı müstəqil, doğma xalqını xoşbəxt görmək istəyən Əhməd Cavad 1937-ci il oktyabrın 13-də güllələndi.Vəhşicəsinə işgəncələrə məruz qalaraq güllələnən şairin bir məzar daşı belə qalmasa da, o,ömrünün sonuna qədər milli istiqlal ideyalarına sadiq qaldı, hüquqları çeynənən bir ölkənin haqq səsi oldu. Təqiblər, məhbəsdəki işgəncələr onun iradəsini qıra bilmədi. O, bir dəfə də olsun xalqına və qələminə xəyanət etmədi. Əhməd Cavad son nəfəsinədək Azərbaycanın azadlığına sadiq qalmış və bu yolda şəhid olmuş vətənpərvər kimi, Azərbaycan istiqlalının böyük şairi kimi yaddaşlarımızdan heç zaman silinməyəcək, daim yaşayacaq... Ürək yanğısı ilə düzüb qoşduğu sözlərini 100 ildən çoxdur ki böyük bir xalq ayaq üstə dinləməkdən usanmır.O bu gün xalqının qəhrəmanı kimi yenidən tarixin səhnəsində öz yerini, layiq olduğu zirvəni tutur. Azərbaycan var olduqca bu yer onun olacaq!

*27.09.2022*



**Məhrux DÖVLƏTZADƏ,**
**ADPU-nun müəllimi**